DOI: https://doi.org/10.36719/2706-6185/21/42-46

**Təhminə Quluzadə**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
guluzada.tahmina.2101@atmu.edu.az

# AZƏRBAYCANDA MÜALİCƏ TURİZMİNİN MÖVCUD VƏZİYYƏTİ

**Xülasə**

Azərbaycanda bir çox yerli və xarici turistlər müalicə məqsədi ilə ölkəyə gəlirlər. Ölkəmizdə müalicə, spa və sair xidmətlər təqdim edən çoxlu sayda sanatoriya, klinikalar, təbabət mərkəzləri mövcuddur. Bu məqalə Azərbaycanın sosial-iqtisadi inkişafında müalicə-sağlamlıq turizminin rolunu araşdırmaq məqsədi daşıyır. Məqalədə müalicə turizminin ölkə daxilində əhəmiyyəti, ölkəmizə müalicə məqsədilə səfər edən turistlərin dinamikası əks olunmuşdur. Bununla yanaşı, məqalədə 2018-2021-ci illər üzrə ölkəmizə ən çox səfər edən ölkələrin statistik göstəriciləri və 2021-ci il üzrə edilən səfərlərin məqsədlər üzrə bölgüsü də təhlil edilmişdir.

***Açar sözlər:*** *müalicə sağlamlıq turizmi, sanatoriya, kurort, turist, Naftalan nefti*

**Tahmina Guluzade**
Azerbaijan Tourism and Management University
master student
guluzada.tahmina.2101@atmu.edu.az

## Current situation of medical tourism in Azerbaijan

**Abstract**

Many local and foreign tourists come to Azerbaijan for treatment. There are a large number of sanatoriums, clinics, medical centers providing treatment, spa and other services in our country. This article aims to investigate the role of health tourism in the socio-economic development of Azerbaijan. The importance of medical tourism within the country and the dynamics of tourists visiting our country for medical purposes are reflected in the article. In addition, the article also analyzed the statistical indicators of the countries that visited our country the most in 2018-2021 and the distribution of the visits made in 2021 by purpose.

***Keywords:*** *medical health tourism, sanatorium, resort, tourist, Naphthalene oil*

## Giriş

Ölkə iqtisadiyyatına gəlir gətirən fəaliyyətlər, bu fəaliyyətlərin müəyyən səviyyədə saxlanılması və əldə edilən gəlirdən səmərəli şəkildə istifadə edilməsi çox vacibdir. Ölkə iqtisadiyyatında turizm fəaliyyəti ciddi rol oynayan mühüm bir sektordur. Bu gün turizm dünyada ən sürətlə inkişaf edən xidmət sektorudur və eyni zamanda digər sektorlar üçün hərəkətverici qüvvədir. Turizmin inkişafı bir çox cəhətdən ölkə iqtisadiyyatına müsbət töhfə verdiyi üçün bu sektorun dəstəklənməsi olduqca vacibdir. Müalicə turizminin, ölkə iqtisadiyyatı baxımından vətəndaşların rifahı və gəlirlərin artırılmasında, beynəlxalq istehsalın artırılmasına təkan verməsi ilə yanaşı, yerli resurslardan səmərəli istifadə edərək məhsullar inkişaf etdirmək, iqtisadiyyatı müxtəlif perspektivlərdən təsir etmək kimi bir çox mühüm funksiyalarının olduğu müşahidə edilmişdir.

Müalicə turizmi təkcə iqtisadi aspekti olan bir sektor deyil, eyni zamanda bütün dünyada bir çox insana təsir edən universal, dinamik, sosial hadisədir. O, həm də mədəni cəmiyyətlərdən olan insanları bir araya gətirdiyi üçün beynəlxalq sülhə xidmət edir. Bundan əlavə, ətraf mühit, təbii sərvətlər, ənənəvi və mədəni dəyərlərə təsir edir. Turizmin müsbət və mənfi təsirlərinə görə dövlət, turizm siyasəti ilə turizmə müdaxilə edir. İnkişaf etməkdə olan ölkələr üçün turizmin daha geniş mənası var. Turizm ölkənin milli gəlirinə, inkişafına və maliyyə sabitliyinə təsir edən amildir (Crooks, Kingsbury, Snyder,

Johnston, 2010: 10). Turizm həm də insanların məşğulluğu deməkdir. Bu sektorun inkişafı, işsizlik səviyyəsinin azaldılmasında, ölkə rifahının yaxşılaşmasında, eləcə də reklam mühitində mühüm rol oynamaqla, ölkənin xaricdə imicini formalaşdırır. Yuxarıdakı məlumatlar əsasında ölkə daxilində turizmin əhəmiyyətini aşağıdakı kimi qeyd etmək olar:

- Milli gəlir üzrə səmərəli fəaliyyət sahəsi olması;
- Valyuta gəlirlərinin artırılması;
- İqtisadi sahələrdən biri olan xidmət sektorunun inkişaf etdirilməsi;
- İqtisadiyyatın digər sahələrinin inkişafına təsir göstərmək;
- Regionların iqtisadi inkişafı üçün şəraitin yaradılması;
- İş imkanlarının yaradılması

Müalicə-sağlamlıq turizmin sosial-iqtisadi əhəmiyyəti, ölkənin dinamik inkişafında və iqtisadiyyatında roludur (Bilalov, Gülalıyev, 2015: 45). Müalicə turizmin iqtisadi rolu ölkəyə mənfəət, gəlir gətirməsi adambaşına düşən milli gəliri artırması, regionların inkişafında rol oynaması, sosial rolu isə yeni iş yerlərinin yaradılması, məşğulluğun təmin edilməsidir.

*Ölkəmizdə müalicə-sağlamlıq turizminin inkişafı üçün təbii ehtiyatlar baxımından zəngin potensiala malikdir. Naftalanın müalicəvi nefti, Naxçıvanın duz mağaraları, Abşeron göllərinin müalicəvi palçıq və suları, Lənkəranın, Gədəbəyin mineral suları, Masallının İsti suyu və ən önəmlisi də işğaldan azad etdiyimiz ərazilərin təbii imkanları.*

Azərbaycanda müalicə turizmi əsasən kurort-sanatoriya xidmətləri üzrə ixtisaslaşmışdır. Buna görə də ölkəmizə gələn turistlər bu sahədə ixtisaslaşan müəssisələrə səfər edirlər. Ölkəmizə gələn xarici vətəndaşlar daha çox Naftalan neftinin müalicəvi xüsusiyyətlərindən faydalanmağa üstünlük verirlər (Əlirzayev, Aslanova, 2006: 30).

Azərbaycana gələn xarici turistlərin və xaricə gedən Azərbaycan vətəndaşlarnın sayının dəyişmə dinamikası azalan və artan templə qeyri-stabil meyillərlə dəyişir. Dəyişmə qrafiki aşağıdakı cədvəldə əks olunmuşdur.

**Cədvəl 1. Azərbaycana müalicə-sağlamlıq məqsədilə gələnlərin dinamikası (min nəfər)**

| İllər | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| **Azərbaycana gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayı-cəmi** | **2849,6** | **3170,4** | **795,7** | **791,8** |
| Turizm məqsədilə | 2605,3 | 2863,5 | 519,4 | 461,7 |
| Sağlamlıq turizmi | 63,1 | 63,9 | 10,4 | 8,3 |
| **Xaricə gedən Azərbaycan vətəndaşlarının sayı** | **4908,1** | **5567,70** | **1164,6** | **974,50** |
| Turizm məqsədilə | 4096,70 | 4347,30 | 746,60 | 557,90 |
| Sağlamlıq turizmi | 288,60 | 268,80 | 42,90 | 31,20 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi, 2022**

İllər üzrə ölkəmizə gələn turistlərin və xaricə gedən Azərbaycan vətəndaşlarının sayına nəzər yetirdikdə müəyyən azalmaların olduğu müşahidə edilir. 2020-ci ildə Covid-19 pandemiyasının baş verməsi turizm sektoruna ciddi şəkildə təsir etmişdir. Belə ki, 2019-cu ildə ölkəmizə gələn əcnəbi vətəndaşların sayı 3 milyon 170 min nəfər olduğu halda, 2020-ci ildə 795 min 700 nəfərə düşmüşdür. 2019-cu ildə ölkəyə 63 min 900 nəfər sağlamlıq məqsədilə gəlmişdir. 2020-ci ildə bu say 10 min 400 nəfər, 2021-ci ildə isə 8 min 300 nəfər olmuşdur. Koronovirus pandemiyası ilə əlaqədar olaraq həyata keçirilən qapanmalar səbəbindən turist səfərlərinin sayında ciddi şəkildə azalmalar baş vermişdir (4).

2019-cu ildə xaricə gedən vətəndaşlarımızın sayı 5 milyon 568 min nəfər olmuşdur. 2020-ci ildə bu say 1 milyon 165 min nəfər, 2021-ci ildə isə 975 min nəfər olmuşdur. Sağlamlıq məqsədilə xaricə gedənlərin sayı 2019-cu ildə 269 min nəfər, 2020 və 2021-ci illərdə isə uyğun olaraq, 43 min və 31 min nəfər olmuşdur (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2022: 100).

**Qrafik 1. Azərbaycana ən çox səyahət edən xarici turistin gəldiyi 5 ölkə, 2019-2021**




**Mənbə: Qrafik statistik göstəricilər əsasında müəllif tərəfindən tərtib edilmişdir**

2021-ci ildə ölkəmizə gələn xarici turistlərin 84%-i 5 ölkənin – Rusiya, Gürcüstan, Türkiyə, İran və Ukraynanın payına düşür. 2020-ci ilin göstəricilərinə nəzər saldıqda, Gürcüstan istisna olmaqla, digər 4 ölkənin gəlmə sayında artım müşahidə olunur. 2020-ci ildə Rusiya (258.3 min) gəlmə sayında liderliyini qorusa da, Gürcüstan (62.6 min) 4-cü pilləyə qədər geriləmişdir. Türkiyə (197.9 min) və İran (125.3min) müvafiq olaraq 2 və 3-cü pillədə qərarlaşmışdır. Yuxarıda qeyd olunan ölkələr içərisində artım tempinin yüksəkliyinə görə İran fərqlənir. Belə ki, gələnlərin sayı 2020/2021-ci illə müqayisədə 72% artsa da, 2019/2021-ci ildəki göstəricilərdən 51% geridə qalmışdır. Müvafiq olaraq, Rusiya, Türkiyə və Ukraynadan gələnlərin sayında 2020/2021-ci illə müqayisədə uyğun olaraq 15%, 23% və 3% artım, 2019/2021-ci illə müqayisədə isə 72%, 38% və 71% azalma müşahidə olunmuşdur (Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi, 2021: 7).

QƏDİM DİYAR Beynəlxalq onlayn elmi jurnal. İmpakt Faktor: 1.028. 2023 / Cild: 5 Sayı: 3 / 42-46 ISSN: 2706-6185
ANCIENT LAND International online scientific journal. Impact Factor: 1.028. 2023 / Volume: 5 Issue: 3 / 42-46 e-ISSN: 2709-4197

**Qrafik 2. Səfərlərin məqsədi, 2021**




**Mənbə: Qrafik statistik göstəricilər əsasında müəllif tərəfindən tərtib edilmişdir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə ölkədaxili səyahət etmiş yerli turistlərin sayı 2020-ci illə müqayisədə 167% artaraq 3.4 milyona çatmışdır. Ölkədaxili həyata keçirilən səyahətlərin sayı isə 2020-ci illə müqayisədə 152% artmışdır. Turistlərin məqsədə görə bölgüsü 2020-ci illə oxşarlıq təşkil edir. Belə ki, Qrafik 2.2-də qeyd edildiyi kimi, yerli turistlərin əsas hissəsi dost-qohum məqsədilə etdiyi ölkədaxili səfərlər həaya keçirmişdir(49%). Daha sonra 24% turist istirahət, 11% işgüzar, 8% müalicə-sağlamlıq və yerdə qalan 8% isə alış-veriş, dini və digər məqsədlərlə ölkədaxili səyahətlər həyata keçirilmişdir.

Ölkəmizə müalicə-sağlamlıq məqsədilə gələnlər daha çox Rusiya, Qazaxıstan, Ukrayna, Türkiyə, Özbəkistan, Belarus, İran vətəndaşları üstünlük təşkil edir. Bu da həmin ölkə vətəndaşlarının Azərbaycanın müalicə-sağlamlıq turizmi haqqında daha çox informasiyaya sahib olmaları ilə əlaqədardır. Bundan başqa burada ənənəvi sanatoriya xidmətlərinə üstünlük verməleri də əsas rol oynayır (Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, 2021: 88).

**Qrafik 3. Səyahətlərin şəhərlər üzrə bölgüsü, 2021**




**Mənbə: Qrafik statistik göstəricilər əsasında müəllif tərəfindən tərtib edilmişdir.**

Qrafik 3-dən göründüyü kimi, səyahətlərin məqsədlərə görə bölgüsündə Bakı, Gəncə, Xaçmaz və Abşeron istisna olmaqla, səyahətlərin təqribən yarıdan çoxu dost-qohum ziyarəti məqsədilə edilmişdir. Müalicə-sağlamlıq xidmətləri məqsədilə Bakı(16%) və Sumqayıt (16%) şəhərlərinə səyahətlər həyata keçirilmişdir.

MDB ölkələrindən gələn turistlər daha çox Naftalanda yerləşən sanatoriyalara üstünlük verirlər. Naftalan şəhərində yüksək, orta və aşağı kateqoriyalı müalicə-sağlamlıq müəssisələrinin olması turistlərin seçim şansını artırır.

Respublikamızda müalicə turizminin inkişafına mane olan səbəblər: texnologiyanın bahalı olması, səhiyyə xidmətlərinin keyfiyyətinin yüksək olmaması, qiymətlərin isə göstərilən xidmətə nisbətən baha olması, xaricdə təhsil almış mütəxəssislərin paytaxtda cəmləşməsi, nəqliyyat vasitələrində olan problemlər və s. (Guseyn, 2017: 37-38).

2020-ci ildə şanlı ordumuzun Böyük Qələbəsi sayəsində düşməndən azad edilmiş torpaqlarımızda, qarşıdakı dövrlərdə iqtisadiyyatın və turizmin inkişaf etdiriləcəyi şübhə doğrultmur. Çünki həmin ərazilərdə turizm potensialı kifayət qədər yüksəkdir. Hazırda işğaldan azad edilmiş torpaqlarımızda yenidənqurma işləri həyata keçirlir. Şübhəsiz, yeni iqtisadi rayonlarda inkişaf daha məhsuldar və dinamik olacaqdır.

## Nəticə

Öz potensialını maksimum dərəcədə istifadə etməyə çalışan Azərbaycan, müalicə turizminin inkişafında bir sıra tədbirlər həyata keçirir və bu sahədəki fəaliyyətlərini daha da artırmaq üçün çalışır. Müalicə sağlamlıq turizmi bütün dünyada olduğu kimi Azərbaycanda da getdikcə inkişaf etməkdə olan sektora çevrilmişdir. Zaman keçdikcə daha çox insan turizmin bu növündən faydalanır. Bu sektorun daha da inkişaf etməsi dövlət və özəl sektor arasında əməkdaşlığı tələb edir. Gələcək inkişaflar Azərbaycan iqtisadiyyatına böyük töhfə verə bilər. Ölkənin sahib olduğu potensialın səmərəli şəkildə istifadə olunması nəticəsində müalicə sağlamlıq turizmi aparıcı sektorlardan biri olacaqdır.

## Ədəbiyyat

1. Crooks, V., Kingsbury, P., Snyder, J., Johnston, R. (2010). What is know about the patient's experience of medical tourism? A scoping review; BMC Health Services Research, 266 p.
2. Bilalov, B., Gülalıyev, Ç. (2015). Turizmin əsasları. Bakı: QHT , 496 s.
3. Əlirzayev, Ə., Aslanova, S. (2006). Turizmin inkişafının sosial-iqtisadi problemləri. Bakı: Adiloğlu, 164 s.
4. https://www.stat.gov.az/source/healthcare/
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2022). Azərbaycanda Turizm, 100 s.
6. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi. (2021). İllik Turzim Statistikası, 28 s.
7. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi. (2021). Azərbaycanda sağlamlıq turizmi - cari vəziyyət və inkişaf perspektivləri, 184 s.
8. Guseyn, A. (2017). Vliyaniye lechebnogo turizma na ekonomiku Azerbaydzhana. Servis v Rossii i za rubezhom, T.11, № 6 (076), 202 s.

Göndərilib: 29.01.2023 Qəbul edilib: 11.03.2023